Ədəbiyyat qəzeti



# Musa Yaqub

# Gedib dirənəydim dağ yoxuşuna, Etdiyim tövbələr yada düşəydi

## Xatirə dağlar

Hanı güclü nəfəs, o tutarlı əl?..
Qayalar salardı bərkinə məni.
Atılıb minərdim belinə əvvəl,
İndi təpə almaz tərkinə məni;
Nə Güllüsiyarın çəməni bilər,
Nə Şeykəm çağırar ərkinə məni.

* * *

Bir də çıxım gedim Uzunquşuna,
Sürəklər, növbələr yada düşəydi.
Gedib dirənəydim dağ yoxuşuna,
Etdiyim tövbələr yada düşəydi.

* * *

Kaş bir də keçəydim Yelligədikdən,
Bir soraq biləydim bala əlikdən...
Sinəm nişangahdı, könlüm mələrdi...
Ordayam, burdayam, hələ bilmirəm
Bu da söz üstündə gəzişmələrdi.

* * *

Can candan can alsın, nəfəs nəfəsdən,
Yolum Qızqayadan keçəydi qəsdən.
Heyrətə gələydim ilahi səsdən -
İsgəndər quşları oxuyaydılar,
Sübhə səs çələngi toxuyaydılar.

* * *

O da ocağımız, Baba dağımız,
Yolunda qançırdır əl-ayağımız.
"Babanın yolları daşdır,
Çəkdiyimiz cəfa xoşdur,
Babam hey! Babam hey!..."
Özünü Həzrətə hədəf tutanlar,
Məzarı büllura tərəf tutanlar,
"Canımı bu yolda al" deyənlərə
Salavat çevirib Salavatgahdan
Qoşulaydım əhli-hal deyənlərə.

* * *

Çözürəm xatirə oyaqlarımı -
Babadan enirdik,
Küləkdöyəndə
Külək yandırmışdı dodaqlarımı...
Axır ki, çəkinə-çəkinə məni
Aldı Qızdar xala tərkinə məni.
Atı məhmizləyib "dəh-dəh" deyəndə
Qamçıya tutmuşdu ayaqlarımı...
Saldım ayağımı tərlik altına
Yenə də yandırdı oynaqlarımı -
O qamçı ağrısı qalıb yadımda,
Ayğırın sağrısı qalıb yadımda.

* * *

Quzey dağım, qarın belə bol olsun,
Yay ayları çayın dolhadol olsun,
Ömürdən-ömürə yolun yol olsun,
Aparsın bizi də gələcəklərə,
Hələ görmədiyim görəcəklərə.

* * *

Əsəd qayasıyla Havaxan durur,
Göylərdə keçidi-dar heyvan durur
Keçənin önündə imtahan durur,
Biri keçim deyir, biri keçməyim.
Diri bulağından içim-içməyim?

* * *

Dağlar əfsanədir, dağlar nağıldı...
Şimşəyi çaxıldı, göyü sağıldı.
Zanqının, Bığırın evi dağıldı...
Hərə bir tərəfə güzar eylədi
İnsanı insandan bezar eylədi.

* * *

Peşnodan yuxarı qızıl qayası,
Üzündə ağ cuna gəlin həyası.
Süzülür buluddan ayın ziyası -
Çaylar qaranlıqda bəyaz küçələr
Dağlar nə qəribə olur gecələr.

* * *

Ruhumda şairlik təbi olaydı,
Daşımda ildırım zərbi olaydı.
Yenə mən olaydım, Nəbi olaydı -
Bir gedib çıxaydıq Toğludərəyə
Düşəydik dağkəli olan bərəyə.

* * *

O dərin dərədə sürü yatanda,
Sürüyə gözətçi fiti çatanda,
Elə bil dağ-dərə qopdu yerindən
Dağkəli sürüsü atıldı birdən,
Yel kimi keçdilər aşırma dağdan
Nəbi də bir güllə atdı uzaqdan...
Sonra səs yayıldı:
- Kəllər hardadır?!.
Mən qaldım söylüyə-söylüyə:
- Gəl çıx!
Kəlləri salmışam töylüyə
- Gəl çıx!
Elə o günlər də keçdi yel kimi.
Xatirə xəyallar incəlir hələ
O kəllər tövlədə dincəlir hələ.

* * *

Seyfəddin kişinin zarafatları,
Alın qırışları qaya çatları.
Onun əmrindəydi kolxoz atları
Hərəmiz birinə minib gedəydik,
Alçalı taladan enib gedəydik -
Xalidlə çox oldum dağ səfərində,
İndi fikrim gəzər həndəvərində.

* * *

Nə bilim mən belə huşa getmişəm,
Söykənib mamırlı daşa, getmişəm.
Mənə bu bərədən məkan olmadı;
Keçdi şimşək kimi cüyür təkəsi,
Tüfəng qaldırmağa imkan olmadı...
Çatıb sürəkçilər keçdi yanımdan,
Utanc bir giziltі keçdi canımdan...
Yenə mamırlı daş yanım olaydı,
Elə giziltili canım olaydı.

* * *

Ovçu Ağarıza haman olardı,
Danlardı ovçunu naşı görəndə.
Özü atıb, özü peşman olardı,
Maralın gözündə yaşı görəndə.
O da sızlayardı gözündə yaşlar: -
"Mən də ovçuluğu atdım qardaşlar"
Amma bərələrdə yenə yatardı,
Yenə gözləyərdi, yenə atardı...

* * *

Sarı əminin də gələrdi səsi,
Hər nəhəng ağacda bir nişanəsi-
Əlində üçatlan dövləti-varı
Dağlara qalxmağa tabı da vardı:
"Burda canavarı mən öldürmüşəm" -
Əminin bir atım gapı da vardı:
Təki o söhbətlər, gaplar olaydı,
Dizimdə əvvəlki tablar olaydı.

* * *

İrzanın gülləsi çıxanda boşa,
Bir az pərt olardı gedərdi huşa:
"Mən də bir ovçuyam, bilmirəm bəyəm"?-
Ona tanış idi hər kol, hər kaha -
Ovu barmağımla göstərəcəyəm -
Amma barmağımı atmayasız ha...
Eh, təki gülləsi çıxaydı boşa
Bizimlə Zarata gedəydi qoşa...

* * *

Axır xahişidi, lap son xahişi -
Hə, bir də baxdılar ağır halına.
Ölüm yatağında Şıxvələd kişi,
Onu çıxartdılar yaylaq yoluna.
Yığıldı başına doğması-yadı...
Dedi: - Bu yataqdan baxın dağlara
Burdan baxılanda dağlar başqadı... -
Keçdiyi yollara baxdı yenidən,
Yaşı saqqalından süzüldü dən-dən;
Üzünü yollara döndərdi getdi,
Ruhunu dağlara göndərdi getdi...

* * *

Sən ey qoca dünya, dağlar səninmi?
O çayı oyaqlar çağlar səninmi?
Məni də göylərə bağlar, səninmi?
Çünki ilham payın fələkdən gəlir
Keçib min xəlbirdən, ələkdən gəlir.

* * *

Görən o dad damaqlarda qalırmı?
Görən o iz ovlaqlarda qalırmı?..
Ovlaqda ov əti daş arasında,
Piyi cızıldardı daş parasında -
Can əti - hər üzü məxmər kimiydi -
Adamın yeməyə heyfi gəlirdi;
Ovlayan kim idi, yeyən kim idi?..
Hazırına çoban Seyfi gəlirdi-
Alırdı, içirdi, yeyib gedirdi
Kimlərdən kimlərə deyib gedirdi...

* * *

Yenə Ağcabərə -
Dərələr duman...
Üstündə iki göl - əksi asiman...
Başı Qara qaya, ayağı zindan,
Çiyin-çiyinədir neçə pəhləvan
Şahdağı qoynunda Sənəm yaylağı.
Nə Sənəm qocalar, nə də Şahdağı...

*Yay, 2016*
*Buynuz*

## Mənim qan yaddaşım

*Şair qardaşım Sabir Rüstəmxanlıya*

Damarda alovdur, köz kimi yanar,
Ölməz torpaq altda kömür yaddaşım.
Dünyada olmayan bir olanım var,
Barmağım ucunda möhür-yaddaşım.
Xınalı daşlarda çilənib qalar,
Mənim daş yaddaşım, dəmir yaddaşım.

Tarix kələfində dolaşdı əlim,
Əlifba sarıdan qısadır dilim.
Xəzər sahilimdir, Qobustan elim,
Yaşar hər daşında ömür yaddaşım.

*Yay - 2016*
*Buynuz*

## Çıxım gedim

Nə əvvələm, nə indiyəm,
Səksənimin içindəyəm.
Axırıncı keçiddəyəm -
Keçidimi keçim gedim.
O bulaqdan çox içmişəm,
Bu çeşmədən içim gedim.
Bir sot biçin yerim qalıb,
Bu yeri də biçim gedim...

Yarpaq-yarpaq tökülmüşəm,
Sarmaşığa bükülmüşəm.
Kərpic-kərpic sökülmüşəm,
Pəncərədən baxım gedim
O qapıdan girmiş idim,
Bu qapıdan çıxım gedim.

Aləm bütün qalmaqaldı,
Kimlər getdi, kimlər qaldı.
Dünya evi darısqaldı,
Daha mən də durum gedim,
Günahımı, savabımı,
Qoltuğuma vurum gedim.

Şirincə hay-haray idi,
Kəndə səfər hər yay idi.
Dünyamız bir dərya idi;
Həm batırır, həm çıxarır,
Həm aşağı, həm yuxarı,
Əyri çayın düz axarı -
Dəyirmandı yuxum, gedim,
Boğazından girmiş idim,
Unluğundan çıxım gedim.
Ağnağazdan küncdə qalan
Urvamı da yığım gedim.

Bura gəlib-gedən qalsın,
Nişan qalsın, bədən qalsın,
Qoy məzarım Vətən qalsın,
Torpağımı qucum gedim.
Bir də dönüm, bir də baxım,
Bir ruh olub uçum gedim.

*Yay - 2016*
*Buynuz*

## Tənhalığın üsyanı

Hər şey qaldı arxada,
Hər şey qaldı geridə,

Neçin könlüm darıxqan,
Tarımardır bu yerdə -

Evdən-eşikdən kənar,
Son tüstüsü buğlanan,
Ürəyim sönük fanar...
Ya bilmirəm soluxmuş
bir payız bənövşəsi,
Ya bəlkə tək bulağam,
Üzündə buz şüşəsi -
Bir əl toxunsa əgər
Ya sınar, ya əriyər
Bir də soyuyub gedər
Könlüm uyuyub gedər...

Heyif o etibardan,
Heyif o intizardan -
Solan yaşıllıqların,
Olan yaxşılıqların
Axırı nə?
bir heç nə...
Tutub bu heçnəlikdən
Hara gedim bilmirəm...
Uçdum hansı yuvadan?
Hara yetim, bilmirəm,
Harda bitim, bilmirəm
Bilmirəm hansı üzü
Tutub üzüm gəlmişəm.
Mənə elə gəldi ki,
Sən məndən incimisən,
Mən səndən incimişəm,
Dönüb küsüb gəlmişəm.
İndi bildim tənhayam
Gündüzümdə, gecəmdə -
Evdən-eşikdən uzaq...
Mən bir asi yalquzaq
Qurd ulayır icimdə.

Dayan görüm, sən Allah,
Yol yaratsın Yaradan!
Səninlə barış üçün
Söz gəzirəm arada...

Bilirəm yalvarışla,
Hiylə sözlə xoşun yox.
Üstün olmaq həvəsin
Bir haqsız savaşın yox.
Eh, nə qəsdi-qərəzdi?..
Biz küsü saxlamazdıq,
İnciklik havasında
Dilimiz işləməzdi.

Hardan doğub bu duyğu
Hardan gəlib bu sorğu;
Ömrün hansı üzüdü? -
Sən yoxsan bu dünyada
Bu nə umu-küsüdü?..

Sən ki, yoxsan dunyada
Nədir bu giley-güzar
Burda tale sirri var.

O köhnə cığırında
Bəlkə otlar icində
Ömrünün axırında
Əkdiklərin göyərib,
Açıb gülün, çiçəyin
Baxmamışam, keçmişəm
İncik düşüb ürəyin?

Bu həyət sənin idi
Köhnə ocaq yerində
Sönüb qalan kösövlər
Alovlanıb bu səhər...
Amma basqa əl ilə
Amma basqa ocaqda -
Sən qalmısan qıraqda,
Mən qalmışam uzaqda
Görmüsən mən də yoxam
Həmin ocaq başında
İncik-incik yanmısan
Ömrün qara daşında
O qızılı donun da
Evdə qalmışdı hələ.
Bəlkə o keçib ələ
Kimisə geyindirib,
Kimisə isindirib.
Bu sənə əyan olub,
Ruhunu diksindirib
Məni də diksindirib.

Dayan, sən Allah, dayan,
Könlüm sınıq darıxqan.
Çaxıb çox ildırımlar,
Çaylaq dası od tutub
Məni də yandırıblar.
Göyün tağına baxma,
Bulud qalıb, dan keçib.
Sinə dağıma baxma
Üstündən hicran keçib.

Xoş xəbər ol, xos çapar,
Dur ayağa, umudum!
Tut qolumdan sən apar:
Gedim, təzədən gedim
Ocagım yanan yerə.
Ürəyim məqam tutub,
Könlüm dayanan yerə.

Qızıl balıqlar kimi,
Çay daşımı tanıyım.
Açın ilkin yolumu,
Öz daşımda bayılım.

Orda cığır saldığım,
Qoşa keçdiyim yerə.
Bütün sevgilərimə,
O and içdiyim yerə.

Ev-eşiyə qarışım,
Öz arxımla danışım.
Mən də köhnə kösövəm,
Ocagımda alışım.
Daha səni tapmaram,
Keçdi qoşa günlərim,
Tək günümlə barışım,
Xatirə günlərimin
Ətəyindən yapışım.

Giley-güzar sarıdan
Dolub daha siyahım -
Öz günahım, öz ahım -
Gedər qiyamətəcən,
Bütün tənhalıqları
Çapıb gedər qiyamım!

*Payız - 2016*
*Bakı*

## İnanmadığım

Mənim dan ulduzum batdı qəfildən,
Batdı batmağına inanmadığım.
Birdən bəxtimin də yuxusu gəldi,
Yatdı yatmağına inanmadığım.

Bağda gülüm soldu, cənnətdə tubum,
Bir payız axsamı çatdı qürubum
Çatdı çatmağına inanmadığım.

Üzümdə zəlzələ, ruhumda qiyam
Dartdı əllərimdən o biri dünyam
Dartdı dartmağına inanmadığım.

Axır hesabımı verdi əlimə,
Tanrı atdı məni ruh aləminə
Atdı atmağına inanmadığım

Nə fərqi - tez oldu, gec oldu, getdi,
Əvvəli, axırı heç oldu getdi,
Getdi getməyinə inanmadığım

Dünya fani imiş, ömrümüz ani,
Bitdi bitməyinə inanmadığım.